# Hər bir tələbənin öz hüquqlarının pozulması ilə bağlı şikayət vermək hüququ var

Müraciət vicdanlı olmalı və həqiqətin bərqərar olmasına xidmət etməlidir.
**Sizi mütləq dinləyəcəklər! Və həqiqət üzə çıxacaq.**
**!!! Unutma ki, saxta ittiham irəli sürmək vicdansız bir davranışdır və sən buna görə cavab verəcəksən. Hər bir insan öz hərəkətlərinə görə məsuliyyət daşıyır.**

Məktəb şagirdinin şikayət müraciəti - valideynin, qəyyumun (ailə üzvünün), müəllimin, digər şagirdin, məhkəmə icraçısının, hər hansı məktəb işçisinin və ya direktorun qanunsuz hərəkətləri nəticəsində şagirdin hüquqlarının pozulması ilə bağlı ola bilər.

*Məsələn: fiziki və ya şifahi zorakılığa məruz qalırsınızsa, təzyiqlərə məruz qalırsınızsa, sizə qarşı haqsızlıq edildiyini düşünürsünüzsə və ya heç bir səbəb olmadan bir şeydə ittiham olunursunuzsa və.s.*

Sənə verilən ziyanın tam ödənilməsini tələb etmək hüququn var.

## Müraciətin hazırlanması

Şagirdin öz müraciətini həm müstəqil, həm də valideyn/qəyyum (ailə üzvü) ilə birlikdə təqdim etmək hüququ var. Müraciət edənin adı və ünvanı, hansı hüququnun pozulduğu və nəyi tələb etdiyi göstərilmədiyi təqdirdə müraciətə baxılmayacaq.

Əgər şagirdin məktəb direktoruna qarşı şikayəti varsa, belə halda şikayət məktəbin qəyyumlar şurasına təqdim edilməlidir.

Bütün digər məsələlərlə bağlı şikayət müraciəti məktəb direktoruna ünvanlanmalıdır.

Müraciətinizə baxılması üçün onu mütləq **qeydiyyatdan keçirmək** lazımdır.

Müraciət növbəti şəkildə hazırlana bilər:

- ✓ Ya kağıza əl ilə yazın, ya da elektron formada yığıb, çapdan çıxarın. Sonra məktəb administratoru vasitəsi ilə ərizəyi qeydiyyatdan keçirin. Administrator sizə müraciətin qeydiyyat nömrəsini və tarixini verməlidir.
- ✓ Və ya onu elektron şəkildə hazırlayın və şəxsi XXXX@students.gov.ge e-poçtunuzdan məktəb e-poçtuna göndərin. Məktəbin elektron poçt ünvanını məktəblər kataloqunda tapa bilərsiniz https://catalog.emis.ge/main

## Müraciətin baxılması

Hər hansı müraciətə baxılarkən şagird və onun sinif yoldaşları, müraciətlə bağlı digər şəxslər dinləniləcək, sübutlar əldə ediləcək. Müraciətə 1 ay ərzində baxılacaq.

- ❖ Müəllimlə bağlı şikayətə məktəbin nizam-intizam komitəsi tərəfindən baxılır.
- ❖ Digər məktəb işçilərinə qarşı şikayətlərə direktor və ya nizam-intizam komitəsi tərəfindən baxılacaq.

Məktəbin hər hansı bir şagirdinə və ya hər hansı bir şagirdin valideyninə qarşı şikayətlərə direktor və ya nizam-intizam komitəsi tərəfindən baxılacaq.

- ❖ Direktora qarşı şikayətlərə məktəbin qəyyumlar şurası və ya nizam-intizam komitəsi tərəfindən baxılacaq. Direktora qarşı şikayətin əsasları aşağıdakılar ola bilər: Direktorun qərarı, direktorun hərəkəti və ya hərəkətsizliyi.

**Uşağa yardım üçün qaynar xətt 111**

**Zəng pulsuzdur**

**Hüquqlarının pozulduğunu hiss etdiyin zaman heç vaxt geri çəkilmə.**

**Qorxma! Sənin bütün hüquqların qorunur!**